**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN DİAQNOSTİK FƏALİYYƏTƏ HAZIRLANMASI

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Nigar Nəsir qızı Niftəliyeva**

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqoji elmlər doktoru, professor
Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

**Rəsmi opponentlər:** pedaqoji elmlər doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

pedaqogika üzrə fəlsəfə doktoru, professor
**İramin Namaz oğlu İsayev**

pedaqogika üzrə fəlsəfə doktoru
**Lamiə Nizami qızı Hacımuradova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqogika elmləri doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. XX əsrin 90-cı illərinin axırlarından başlayaraq Azərbaycan təhsilinin modernləşdirilməsi nəticəsində ümumi təhsilin, o cümlədən ibtidai təhsilin məqsədi, məzmunu və texnologiyası əsaslı şəkildə dəyişdi. Şəxsiyyətyönümlü yanaşma pedaqoji prosesdə fərdi və diferensial yanaşmada, müəllimlərin diaqnostik fəaliyyəti əsasında şagird şəxsiyyətinin öyrənilməsində mühüm dəyişikliklərə səbəb oldu. *"Oxu, yazı və hesablama bacarıqları, vətənpərvərlik və Azərbaycan xalqının dəyərlərinə, dövlət rəmzlərinə hörmət hissi aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin biliklər, şəxsiyyətin formalaşdırılmasına yönəlmiş həyati bacarıqlar, sadə əmək vərdişləri, məntiqi təfəkkür elementləri, bədii-estetik keyfiyyətlər formalaşdırmaq"*[1] ibtidai təhsilin əsas məqsədi hesab olundu.

Kiçikyaşlı məktəblilərin şəxsiyyət kimi formalaşdırılmasının özülü ibtidai məktəbdə qoyulduğundan bu, ümumi təhsil pilləsinin vacib səviyyəsi hesab olunur. Bu da ibtidai sinif müəllimlərindən şagirdlərin yaş və fərdi xüsusiyyətlərini, idraki imkanlarını, oxumağa qabilliyini, əqli, əxlaqi yetkinliyini, maraq, meyil və arzularını, təlimdə irəliləyişlərinin dinamikasını nəzərə almaqla inkişaf perspektivlərini müəyyənləşdirməyi tələb edir. Belə bir vəziyyətdə ibtidai sinif müəlliminin fəaliyyətində diaqnostik komponentin xüsusi çəkisi artmış olur. Bununla yanaşı, həm nəzəri tədqiqatlar, həm də müəllimlər arasında aparılan sorğuların nəticələrinin təhlili sübut edir ki, ibtidai sinif müəllimləri diaqnostik fəaliyyətdə ciddi çətinliklərlə üzləşirlər. İbtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətindəki çətinliklər, əsasən, təhsilin məqsədinin müəyyən edilməsində, tədris materialının seçilməsində, şagirdlərin fərdi inkişaf imkanlarının üzə çıxarılmasında, adekvat metodların tətbiqində, təhsilin diferensiallaşdırılmasında, geridə qalan uşaqlara fərdi yanaşmanın həyata keçirilməsində, istedadlı uşaqlarla işləməkdə özünü göstərir. İbtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətindəki bu çətinliklər müəllimin pedaqoji fəaliyyə-

---

[1] Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu // http://www.e-qanun.-az/framework/18343

tinin xarakterinə və keyfiyyətinə mənfi təsir göstərməklə yanaşı, həm də şagirdyönümlü yanaşma ideyalarının həyata keçirilməsinə ciddi maneə yaradır. Ona görə də ibtidai sinif müəllimi hazırlığını həyata keçirən ali pedaqoji məktəblərdə tələbələrin diaqnostik fəaliyyətə hazırlanması üçün məqsədyönlü iş aparılmalı, pedaqoji fənlərin imkanlarından geniş istifadə edilməlidir. Araşdırmalar göstərir ki, gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığında onların diaqnostik fəaliyyətə hazırlığına ciddi fikir verilmir. Pedaqoji diaqnostika ilə bağlı məsələlər pedaqoji fənlərin (“Pedaqogika”, “İbtidai təhsilin pedaqogikası”, “Müəllimlik ixtisasına giriş” və s.) tədrisində kompleks şəkildə deyil, fraqmentlər şəklində verilir. Bu da təbii ki, gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətdə hazırlığını təmin edə bilməz. Halbuki, diaqnostik mədəniyyət müasir müəllimin peşə mədəniyyətinin ən vacib komponentlərindən biri hesab olunur.

Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlığında ən mühüm çatışmazlıqlardan biri də bu sahədə nəzəri tədqiqatların azlığı ilə bağlıdır. İndiyədək Azərbaycan elmi-pedaqoji ədəbiyyatında müəllimin diaqnostik fəaliyyətə hazırlığı kifayət qədər öyrənilmədiyindən tələbələrin bu fəaliyyətə hazırlığının nəzəri və praktik istiqamətlərini müəyyənləşdirmək çətindir.

Bununla yanaşı qeyd etməliyəm ki, rus nəzəriyyəçiləri pedaqoji diaqnostika ilə bağlı müəyyən araşdırmalar aparmış, pedaqoji diaqnostikanın inkişaf istiqamətləri (K.H.İngenkamp, E.A.Mixayliçev və b.), pedaqoji prosesin keyfiyyətinin diaqnostik əsasda qiymətləndirilməsi (B.P.Bitinas, N.K.Qolubyev və b.), pedaqoji diaqnostikanın mahiyyəti və vəzifələri, strukturu, səviyyələri, funksiyaları və metodları (L.İ.Katayeva, A.İ.Koçetov, E.A.Mixayliçev və b.), məktəbdə eksperimental işin təkmilləşdirilməsində diaqnostikanın rolu (A.V.Mosina, A.S.Belkin, V.Q.Maksimov və b.), müəllimin peşə-pedaqoji fəaliyyətində diaqnostikanın yeri (A.S.Belkin, V.Q.Maksimov və b.), tədris prosesinin nəticəsinin və səmərəliliyinin müəyyənləşdirilməsində diaqnostikanın əhəmiyyəti (Z.İ.Vasilyeva, A.İ.Koçetov, M.İ.Şilova və b.) mövzularında araşdırmalar aparmışlar.

Rus və Avropa tədqiqatçılarının pedaqoji diaqnostika sahəsində apardıqları araşdırmalar Azərbaycanda da bu istiqamətli araşdırmaların aparılmasını şərtləndirmiş, 20-30-cu illərdə A.O.Makovelskinin,

B.B.Komarovskinin, M.M.Muradxanovun, F.Ə.İbrahimbəyovun uşaqların intellektual səviyyəsinin və təlim nailiyyətlərinin diaqnostikası ilə bağlı maraqlı araşdırmaları meydana gəlmişdir. Sonrakı illərdə Azərbaycanda pedaqoji və psixoloji diaqnostikanın sistemli, əhatəli və obyektiv şəkildə aparılmasına qadağa qoyulmuş, sosioloji araşdırmalar, statistik məlumatların təhlili və test metodundan istifadə ciddi tənqid edilmişdir. Yalnız keçən əsrin 90-cı illərindən başlayaraq pedaqoji diaqnostika ilə bağlı A.Mehrabovun, M.Mərdanovun, Ə.Əlizadənin, R.Əliyevin, E.Bəylərovun, T.Əliyevanın, F.Bakışlının elmi əsərləri nəşr edilmiş, Ə.Paşayev və F.Rüstəmovun "Pedaqogika" dərs vəsaitində pedaqoji fəaliyyətin diaqnostikası, müəllimin diaqnostlaşdırma funksiyası, inkişafın diaqnostikası, oxumağa qabilliyin diaqnostikası, tərbiyəliliyin diaqnostikası anlayışlarının mahiyyəti və məzmunu ilə bağlı qısa da olsa məlumat verilmişdir. L.Qasımova və R.Mahmudovanın, F.Rüstəmov və T.Dadaşovanın, F.İbrahimovun, M.İsmixanovun, F.Məmmədov, N.İmamverdiyeva və İ.Şıxəliyevanın pedaqogikaya dair dərslik və dərs vəsaitlərində, A.Mehrabovun və M.İlyasovun monoqrafiyalarında pedaqoji diaqnostika, Ə.Əlizadə, G.Əliyeva, R.Əliyev, N.Çələbiyev və L.Əmrahlının tədqiqatlarında isə psixoloji diaqnostika ilə bağlı müəyyən məlumatlar verilmişdir. "Pedaqoji diaqnostikanın nəzəri və praktik əsasları" mövzusunda yazdığı elmlər doktorluğu dissertasiyasında diaqnostik yanaşmanın müxtəlif problemlərini şərh edən T.Eminli gələcək ibtidai sinif müəllimlərində diaqnostik mədəniyyətin formalaşdırılmasına toxunmamışdır. A.Həsənov ali pedaqoji təhsil müəssisələrində gələcək müəllimlərin peşə mədəniyyətinin formalaşdırılması, Ş.Məmmədov ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə, İ.Məmmədova isə gələcək ibtidai sinif müəllimlərinin innovativ fəaliyyətə hazırlanması problemini şərh edərkən diaqnostik fəaliyyətin zəruriliyini qeyd etsələr də bu məsələni elmi araşdırmaların predmetinə çevirməmişlər.

Gələcək ibtidai sinif müəllimlərinin təhsil standartlarının, tədris planlarının, pedaqoji fənlər üzrə proqramların, pedaqogikadan dərslik və dərs vəsaitlərinin təhlili göstərdi ki, həmin tədris resursları gələcək müəllimlərdə diaqnostik mədəniyyətin formalaşdırılması üçün kifayət qədər məlumatı özündə əks etdirmir. Diaqnostik mədəniyyət gələcək ibtidai sinif müəllimlərində pedaqoji mədəniyyətin mühüm

komponenti kimi təhlilə cəlb edilməyib, onun nəzəri və praktiki məsələləri araşdırılmayıb. Bu səbəbdən də “Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması” mövzusunda dissertasiya yazmağı vacib hesab etdim.

**Tədqiqatın obyektini** gələcək ibtidai sinif müəllimlərinin pedaqoji peşə mədəniyyəti təşkil edir.

**Tədqiqatın predmetini** gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlığı təşkil edir.

**Tədqiqatın məqsədi** gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının nəzəri məsələlərini, didaktik modelini müəyyənləşdirməkdən, problemlə bağlı pedaqoji fənlərin və pedaqoji təcrübənin imkan və yollarını üzə çıxarmaqdan və eksperiment yolu ilə təsdiq etməkdən ibarətdir.

**Tədqiqatın** məqsədinə uyğun olaraq aşağıdakı **vəzifələr** həyata keçirilmişdir:

- pedaqoji mədəniyyətin struktur komponentlərini və onların xüsusiyyətlərini müəyyənləşdirmək;
- pedaqoji mədəniyyətin struktur komponentləri arasında diaqnostik mədəniyyətin yerini və rolunu müəyyənləşdirmək;
- pedaqoji diaqnostikanın mahiyyətini və məzmununu müəyyənləşdirmək;
- gələcək ibtidai sinif müəlliminin diaqnostik mədəniyyətinin formalaşması üçün didaktik model qurmaq və həyata keçirmək;
- pedaqoji fənlərin tədrisində gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının imkan və yollarını müəyyənləşdirmək;
- pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının imkan və yollarını müəyyənləşdirmək;
- diaqnostik mədəniyyətin və onun komponentlərinin formalaşmasının mümkün səviyyələrini xarakterizə etmək;
- müəllimlərin diaqnostik hazırlığının təkmilləşdirilməsinə yönəlmiş metodiki tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqatın fərziyyəsi.** Gələcək ibtidai sinif müəllimlərində diaqnostik mədəniyyətin formalaşdırılması: a) təklif edilən didaktik modelin həyata keçirilməsindən; b) diaqnostik mədəniyyətin forma-

laşmasında davamlılığın, ardıcıllığın və mərhələliyin gözlənilməsindən; c) diaqnostik təfəkkürün, diaqnostik şüurun, diaqnostik fəaliyyətin formalaşmasının sistemliliyindən; ç) diaqnostik mədəniyyətin struktur komponentlərinin inkişafında müsbət dinamikanın olmasından asılıdır.

**Tədqiqatın metodları:** Fərziyyənin eksperimental yoxlanılması zamanı aşağıdakı üsullardan istifadə edilmişdir: a) nəzəri – müqayisəli və məntiqi təhlil, sistemləşdirmə, sintez, fakt və anlayışların ümumiləşdirilməsi; b) empirik – faktorial eksperiment, müsahibə, müşahidə, tələbələrin yaradıcılıq məhsullarının öyrənilməsi; c) riyazi statistika metodları

**Müdafiəyə çıxarılan müddəalar:**

- diaqnostik təfəkkürün, diaqnostik şüurun və diaqnostik fəaliyyətin sintezindən ibarət olan diaqnostik mədəniyyət gələcək ibtidai sinif müəlliminin pedaqoji mədəniyyətinin mühüm tərkib hissəsidir;
- pedaqoji fəaliyyətin strukturunda əsas rol oynayan diaqnostik komponent informasiya, qiymətləndirmə və proqnostik funksiyaları yerinə yetirir;
- gələcək ibtidai sinif müəllimlərinin diaqnostik mədəniyyətinin formalaşdırılmasının didaktik modeli məqsəd, məzmun, fəaliyyət və meyar komponentlərinin sistemidir;
- gələcək ibtidai sinif müəllimlərində diaqnostik mədəniyyətin formalaşdırılması pedaqoji şərtlərin (dəyərlər, motivasiyaedici –stimullaşdırıcı, məzmun-texnoloji, emosional-iradi, təşkilati, nəzarət və tənzimləmə), zəruri komponentlərin (motivasiya-dəyər, koqnitiv, əməliyyat) və meyarların (koqnitiv, emosional, motivasiya, biliyin formalaşdırılması, təfəkkürün formalaşdırılması, əməliyyatın həcmi, əməliyyatın icra keyfiyyəti, texnoloji) nəzərə alınmasından asılıdır;
- pedaqoji fənlərin tədrisində diaqnostika ilə bağlı məlumatların verilməsi və pedaqoji təcrübənin səmərəli təşkili gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasında mühüm rol oynayır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada diaqnostik mədəniyyət müəllimin pedaqoji mədəniyyətinin vacib komponenti kimi izah edilir, gələcək ibtidai sinif müəllimlərinin diaqnostik mədəniyyətinin formalaşdırılmasının didaktik modeli qurulur, onun pedaqoji

şərtləri (dəyərlər, motivasiyaedici–stimullaşdırıcı, məzmun-texnoloji, emosional-iradi, təşkilati, nəzarət və tənzimləmə), zəruri komponentləri (motivasiya-dəyər, koqnitiv, əməliyyat) və meyarları (koqnitiv, emosional, motivasiya, biliyin formalaşdırılması, təfəkkürün formalaşdırılması, əməliyyatın həcmi, əməliyyatın icra keyfiyyəti, texnoloji) müəyyənləşdirilir və eksperiment vasitəsi ilə sübut edilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması ilə bağlı nəzəri fikirlər (gələcək müəllimin diaqnostik mədəniyyətinin formalaşmasının didaktik modeli, diaqnostik mədəniyyətin formalaşdırılmasının psixoloji və pedaqoji şərtləri, diaqnostik mədəniyyətin formalaşdırılmasının səviyyəsi və s.) ibtidai təhsilin didaktikasını zənginləşdirə bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən "İbtidai sinif müəllimliyi" ixtisasının təhsil proqramının hazırlanmasında, "Pedaqogika", "İbtidai təhsilin pedaqogikası", "Müəllimlik ixtisasına giriş" fənlərinə aid tədris proqramlarının təkmilləşdirilməsində, həmin fənlərlə bağlı mühazirə və seminar məşğələlərində və müəllimlərin peşə bacarıqlarının qiymətləndirilməsində istifadə etmək olar.

**Aprobasiya və tətbiq.** Dissertasiyanın nəticələri ilə bağlı Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın tövsiyə etdiyi jurnallarda 18 məqalə nəşr edilmiş, beynəlxalq və respublika elmi konfranslarında, kafedranın və fakültənin elmi seminarlarında məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyanın giriş hissəsi 11429, I fəsil 107173, II fəsil 138555, nəticə hissəsi 4108, ümumi həcmi 261265 işarədən ibarətdir.

## TƏDQİQATIN STRUKTURU

Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

“Giriş”də tədqiqatın aktuallığı əsaslandırılır, obyekti, predmeti, məqsədi, vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar verilir.

Dissertasiyanın “***Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının nəzəri məsələləri***” adlı I fəslin “*İbtidai sinif müəllimlərində pedaqoji peşə mədəniyyətinin* formalaşdırılması” adlı ilk paraqrafında əsaslandırılır ki, müəllimin ümumi və peşə mədəniyyəti onların təlim və təhsil fəaliyyətində, şagirdləri öyrətmək, tərbiyə etmək və inkişaf etdirməklə bağlı bilik, bacarıq və vərdişlərinin məcmusunu ehtiva edir. Bunlar elə tələblərdir ki, müəllim onlara əməl etməklə qarşısına qoyduğu məqsədə nail olur. Müəllimin peşə fəaliyyəti zamanı özünü büruzə verən şəxsi keyfiyyətləri onun peşə mədəniyyətinin səviyyəsini müəyyənləşdirməyə imkan verir.

Tədqiqatlarda pedaqoji mədəniyyətin 3 əsas komponentini fərqləndirirlər: 1) şəxsi-yaradıcı; 2) evristik; 3) fəaliyyət. *Şəxsi-yaradıcı* komponent dedikdə dəyərlər-münasibətlər, dəyərlər-keyfiyyətlər, dəyərlər-biliklər, yaradıcı təxəyyül, *evristik komponent* dedikdə pedaqoji səriştəlilik, pedaqoji təfəkkür, pedaqoji improvizə bacarığı, *fəaliyyət dedikdə* ünsiyyət və təşkilatçılıq bacarığı, tolerantlıq, empatiya nəzərdə tutulur. Bütün bu komponentlər özündə refleksiya bacarığını, milli, bəşəri və insani dəyərləri, pedaqoji əməyin ecazkarlığını, peşəkarlığının inkişafını, öz hərəkətini diaqnostlaşdırmağı və proqnozlaşdırmağı, uşaqlara qarşı empatiya hissinin gücləndirilməsini nəzərdə tutur.

İlk paraqrafda gələcək müəllimlərdə peşə mədəniyyətinin formalaşdırılmasının aşağıdakı struktur elementləri *(aksioloji element, texnoloji element, peşə mədəniyyətinin yaradıcı elementi, insanlıq elementi*) verilir, *peşə mədəniyyətinin tərkib elementləri* (daxili mədəniyyət, xarici mədəniyyət), *peşə mədəniyyətinin məzmunu* (pedaqoji texnologiyalar, münaqişələrin həlli, fərdi və kollektiv fəaliyyətin texnologiyaları), peşə fəaliyyətinin fərdi üslubu, pedaqoji təcrübə, *peşə mədəniyyətinin funksional elementləri* (aksioloji, tərbiyəvi, tənzimləyici, normativ) təhlil olunur.

Müxtəlif elm sahələrində (tibb, fəlsəfə, psixologiya, pedaqogika və s.) “diaqnoz” anlayışının məzmunu və mahiyyəti ilə

bağlı fikir ayrılıqları vardır. Yunan dilindən tərcümədə "diaqnoz" anlayışının mənalarından biri "tanınma" kimi izah olunur. Buna görə də diaqnozun əsas mahiyyəti tanınmadır. Tanınmanın isə iki tərəfi vardır. Birinci tərəf onun ümumi (mücərrəd), ikinci tərəf isə xüsusi (konkret) cəhətlərini özündə ehtiva edir. Diaqnoz termini iki söz-kökdən ibarətdir: "dia" və "gnosis". Bəzi tədqiqatçılar onu "biliklər-arası", yəni ümumi və xüsusi biliklərin tanınması kimi izah edir. Psixodiaqnostika termini psixoloji diaqnozdur. Yunan dilindən "psyche" – ruh, "diagostikos" – tanımaq qabiliyyəti kimi tərcümə olunduğundan, psixodiaqnostika anlayışı "ruhu tanımaq bacarığı" kimi izah olunur.

*"Pedaqoji diaqnostikanın mahiyyəti və məzmunu"* adlı ikinci paraqrafda əsaslandırılır ki, diaqnostika mürəkkəb bir prosesdir, daha doğrusu, bir sistemdir. Bu sistemə *nəzarət, yoxlama, qiymətləndirmə, statistik məlumatların toplanması, onların təhlili* daxildir. Diaqnostikanın nəticələri nəzərə alınmaqla pedaqoji prosesdə baş verən irəliləyişləri və inkişaf dinamikasını müəyyən etmək mümkündür. Pedaqoji diaqnostika tətbiqi xarakter daşıdığına görə onun əsas funksiyası pedaqoji prosesin səmərəliliyini təmin etmək üçün əlverişli şəraitin yaradılmasına xidmət etməkdir. Pedaqoji-psixoloji diaqnostika anlayışı ilə bərabər psixodiaqnostika anlayışından da geniş istifadə olunur. Gələcək müəllimlərin diaqnostik fəaliyyətə hazırlanması ali pedaqoji təhsilin əsas istiqamətlərindən birini təşkil edir. Diaqnostik fəaliyyət müəllimin pedaqoji funksiyalarının əsas və vacib mərhələsidir. Dissertasiyada əsaslandırılır ki, diaqnostikanın məqsədi təhsil-tərbiyə prosesinin təşkili xüsusiyyətlərini təhlil etməkdən, nəticələri üzə çıxarmaqdan, qiymətləndirməkdən və korreksiya etməkdən ibarətdir.

*"Problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu"* adlı üçüncü fəsildə diaqnostik dəyərləndirmə tarixi aspektdə təhlil və tədqiq edilir. Azərbaycanda diaqnostik qiymətləndirmənin təlimin keyfiyyətinin yüksəldilməsinin mühüm vasitəsi kimi tədqiq olunduğu əsaslandırılır.

Elmi-pedaqoji ədəbiyyatında diaqnostika ilə bağlı Azərbaycan və rus alimlərinin apardığı araşdırmalar aşağıdakı kimi ümumiləşdirilir: 1) diaqnostikanın nəzəri aspektləri və inkişaf istiqamətləri

(K.İngenkamp, E.A.Mixayliçev, A.O.Mehrabov, Ə.X.Paşayev, L.N.Qasımova, R.M.Mahmudova və b.); 2) pedaqoji prosesin və müəllimin pedaqoji fəaliyyətinin keyfiyyətinin diaqnostik yolla dəyərləndirilməsi (N.K.Qolubyev, B.P.Bitinas, A.O.Mehrabov, F.A.Rüstəmov, M.İ.İlyasov, T.Y.Dadaşova, N.İmamverdiyeva və b.); 3) pedaqoji diaqnostikanın mahiyyəti, məzmunu, vəzifələri, strukturu, meyarları, səviyyələri və metodları (A.İ.Koçetov, E.A.Mixayliçev, A.İ.Katayeva, L.Qasımova, R.Mahmudova və b.); 4) diaqnostika məktəbdə eksperimental işin təkmilləşdirilməsi və müəllimi tədqiqatçılıq fəaliyyətinə hazırlayan vasitə kimi (A.V.Mosina, A.S.Belkin, M.İ.Şilova, M.İlyasov, F.Məmmədov və b.); 5) diaqnostika müəllimin pedaqoji fəaliyyətinin xüsusi bir növü kimi (A.S.Belkin, V.M.Miniyarov, M.İ.İlyasov, L.N.Qasımova, R.M.Mahmudova və b.); 6) pedaqoji prosesinin səmərəliliyinin və məhsuldarlığının öyrənilməsinin zəruri şərti kimi (M.İ.Şilova, A.İ.Koçetov, F.A.Rüstəmov, F.Məmmədov, İ.Şıxəliyeva və b.).

Paraqrafda əsaslandırılır ki, pedaqoji diaqnostika anlayışının Azərbaycan elmi-pedaqoji ədəbiyyatında intensiv işlənilməsinə psixoloji diaqnostika ilə bağlı araşdırmaların mühüm təsiri olmuşdur. Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, B.Əliyev, S.İ.Seyidov, R.İ.Əliyev, R.Cabbarov, N.Çələbiyev, L.Əmrahlı və başqaları psixoloji diaqnostika ilə bağlı xeyli araşdırma aparmışlar. Pedaqoji diaqnostikanın formalaşdırılması müəllimin peşəkarlığından, onun zəruri səriştəyə malik olmasından asılıdır. Müəllimin diaqnostik səriştəyə malik olması ondan nəzəri hazırlıqla bərabər, həm də pedaqoji proses zamanı yaranan problemləri həll etmək bacarığı və xüsusi yaradıcılıq tələb edir. Müəllimin diaqnostik fəaliyyətə hazırlığı müxtəlif komponentlərdən asılıdır ki, onlar aşağıdakı kimi müəyyənləşdirilir: 1) dəyər-motivasiya hazırlığı; 2) nəzəri hazırlıq: 3) diaqnostik fəaliyyətə praktiki hazırlıq; 4) emosional hazırlıq; 5) iradəli olmaq.

XX əsrin 20-ci illərində Avropada və Rusiyada testologiya ilə bağlı aparılan araşdırmalar Azərbaycanda bu sahədə yeni bir elmi istiqamətin əsasını qoydu. Şagirdlərin bilik, bacarıq və vərdişlərinin, intellektual səviyyələrinin yoxlanılmasında testlərdən geniş istifadə olunmağa başlandı. Təlim prosesində "kompleks" və "kompleks-

layihə" üsullarının geniş tətbiqi zamanı test tapşırıqlarına üstünlük verilməyə başlandı. Həmin dövrdə şagirdlərin təlim fəaliyyəti iki qiymət meyarı ilə müəyyənləşdirilirdi: "kafi" və "qeyri-kafi". Diaqnostik prosedurların bütün mərhələləri nəzərə alınmadığına görə bu yanaşma özünü doğrultmurdu. Ona görə də məktəblilərin təlim nailiyyətlərinin *"cari, fərdi və müntəzəm surətdə uçotunun aparılması"*[2] nəzərdə tutuldu.

Görkəmli Azərbaycan pedaqoqları M.M.Mehdizadə təhsilin keyfiyyətinin yüksəldilməsində uçotun əhəmiyyətini yüksək qiymətləndirir[3], M.Ə.Muradxanov isə onu "irəli getmək üçün bir vasitə"[4] hesab edirdi.

20-ci illərdən fərqli olaraq, 30-cu illərin əvvəllərində şagirdlərin təlim nailiyyətlərinin yoxlanılmasında test tapşırıqları mühüm yer tuturdu. Test metodu keçmiş İttifaq miqyasında böyük populyarlıq qazanmışdı. Həmin dövrdə test tapşırıqlarından həm də şagirdlərin əqli qabiliyyətlərinin yoxlanılmasında istifadə edilirdi. M.Ə.Muradxanov yazırdı:"Mövcud psixoloji tədqiqat metodları... uşaqların əqlən ancaq hazırkı vəziyyətini göstərir və onun gələcəkdə necə olacağı haqqında heç bir şey deyə bilməz"[5]. Ona görə də pedaqoji-psixoloji ədəbiyyatda intellektual səviyyəsi bərabər olanların seçilməsi və qruplara yerləşdirilməsi vacib hesab olundu. Bu məqsədlə də milli xüsusiyyətləri özündə ehtiva edə bilən testlərin yaradılmasına təşəbbüs göstərildi. F.Ə.İbrahimbəyov "Bine–Simon" testlərini milli xüsusiyyətlərə uyğunlaşdırmağa nail oldu. Onun tərtib etdiyi testlər vasitəsi ilə uşaqların təsəvvürü, biliyi, hafizəsi və hesablama ilə bağlı ilkin məlumatları yoxlanılırdı. Həmin dövrdə A.O.Makovelskinin, B.B.Komarovskinin, M.Ə.Muradxanovun, F.Ə.İbrahimbəyovun uşaqların intellektual səviyyəsinin və təlim na-

---

[2] Məktəb direktoru üçün sorğu kitabı / tərt. ed. A. N. Kərimov, Z. M.Mehdizadə.– Bakı: Azərnəşr,– 1959, s.30

[3] Mehdizadə, M. Texnikum tələbələrinin müvəffəqiyyətinin uçota alınması haqqında //– Bakı: "Kommunist tərbiyəsi uğrunda" jurnalı, – 1932, №9-12,– s.18-19

[4] Muradxanlı, M. Məktəb işlərinin uçotu // – Bakı: "Müəllimə kömək" jurnalı, – 1932, №1,– s.24

[5] Muradxanlı, M. Sinfin komplektləşdirilməsi // – Bakı: "Müəllimə kömək" jurnalı, –1935, № 6-7,– s. 71

iliyyətlərinin diaqnostikası ilə bağlı maraqlı araşdırmaları meydana gəldi. Təəssüf ki, ÜİK(b)P MK-nın "XMK sistemində pedoloji təhriflər haqqında" qərarı ilə pedologiya bir elm kimi ləğv edildi. Bununla da Azərbaycanda pedaqoji və psixoloji diaqnostikanın sistemli, əhatəli və obyektiv şəkildə aparılmasına qadağa qoyuldu. Sosioloji araşdırmalar, statistik məlumatların təhlili və test metodundan istifadə ciddi tənqid edildi. Məktəbdə yalnız pedaqoji eksperimentlərin aparılmasına icazə verildi.

*"İbtidai sinif müəllimi pedaqoji diaqnostikanın subyekti kimi"* adlı dördüncü paraqrafda gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətində mühüm yer tutan xüsusiyyətlər (psixofizioloji xüsusiyyətlər, şagirdlərin koqnitiv inkişaf səviyyəsi, fərdi xüsusiyyətləri, təfəkkürün məzmunu və inkişaf dərəcəsi, kreativ (yaradıcı) düşünmə qabiliyyəti araşdırılır. Bununla yanaşı *g*ələcək müəllimlər təlim prosesində informasiyanı qavramağı, onun bilik, bacarıq və vərdişlərə çevrilməsinin psixofizioloji xüsusiyyətlərini öyrənir. Bu zaman onlarda fərziyyə irəli sürmək, təcrübədə yoxlamaq, sınaqdan keçirmək, induktiv və deduktiv əqli nəticələr çıxarmaq bacarığı formalaşır. Bununla yanaşı gələcək müəllimlərdə həm də özünütənqidi münasibət formalaşır, həyata keçirdiyi layihənin nə qədər uğurlu alınıb-alınmadığını qiymətləndirə bilir. Paraqrafda həm də gələcək ibtidai sinif müəllimlərində refleksiya bacarıqlarının formalaşdırılmasının aşağıdakı səviyyələri müəyyənləşdirilir: 1) müəllimin layihələşdirdiyi dərsin səmərəlilik səviyyəsini; 2) dərsin məqsədinin reallaşdırma səviyyəsini; 3) öyrənmə fəaliyyətinin səmərəli olmasını; 4) şagirdlərin təlim nailiyyətlərinin dəyərləndirilməsinin üsul və vasitələrinin səmərəlilik səviyyəsini; 5) qiymətləndirmə üsul və vasitələrinin nə dərəcədə effektiv olduğunu; 6) şagirdlərin fəal öyrənmə prosesinə cəlb edilməsini, mövzunun nə dərəcədə mənimsənilməsini və onların maraq və ehtiyaclarının səviyyəsinin müəyyənləşdirilməsi.

Diaqnostik fəaliyyətin uğurla həyata keçirilməsi onun həyata keçirənlərin qabiliyyətindən asılıdır. Psixologiyada qabiliyyətlər "şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri olub müəyyən fəaliyyətlərin müvəffəqiyyətli icrasının şərtini təşkil edir və onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqlər-

də ifadə olunur”[6]. Pedaqoji qabiliyyətlər dedikdə pedaqoji fəaliyyətin uğurla həyata keçirilməsini təmin edən və onun realizə edilməsinin əsas şərti olan qabiliyyətlər nəzərdə tutulur. İbtidai sinif müəllimlərində iki qabiliyyət fərqləndirilir: 1) ümumi qabiliyyət; 2) xüsusi qabiliyyət. Gələcək ibtidai sinif müəllimlərinin təşkilatçılıq, təlim (öyrətmə), kommunikativ, perseptiv, suqqestiv, tədqiqatçılıq, elmi-idraki qabiliyyətləri geniş təhlil edilir. Burada həm də diaqnostik fəaliyyətin spesifikliyi araşdırılır, fərqli xarakterli – hərəkətlər ( *koqnitiv* və *texnoloji* hərəkətlər) öyrənilir.

Dissertasiyanın ikinci fəsli ***“Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının imkan və yolları”*** adlanır. Fəslin “*Ali pedaqoji məktəblərdə gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının didaktik modeli”* adlı ilk paraqrafında əsaslandırılır ki, pedaqoji diaqnostikanın əsasını *diaqnostik bilik və bacarıqlar* təşkil edir. Didaktik modelin həyata keçirilməsinin əsas nəticəsi kimi gələcək müəllimin peşəkar və şəxsi inkişafının tərkib hissəsi kimi onun diaqnostik fəaliyyətə hazırlanması və onlarda diaqnostik mədəniyyətin formalaşdırılması müəyyənləşdirilir. Bu zaman aşağıdakı şərtlərə əməl edilməsi vacib hesab edilir. *Birinci şərt* diaqnostik mədəniyyətin formalaşdırılmasının aksioloji əsasını təşkil edir. *İkincisi motivasiyaedici–stimullaşdırıcı* şərtdir ki, pedaqoji fəaliyyətin diaqnostik əsasda həyata keçirilməsinə münasibətin formalaşmasını təmin edir. *Üçüncüsü məzmun-texnoloji* şərtdir ki, gələcək ibtidai sinif müəllimlərində formalaşdırılan diaqnostik mədəniyyətin məzmunu ilə tədris fənlərinin məzmunu arasındakı əlaqəni əks etdirir. *Dördüncüsü, emosional-iradi* şərtdir ki, diaqnostik mədəniyyətin məzmununu mənimsəmək üçün gələcək ibtidai sinif müəllimlərində iradi səylərin inkişafını, pedaqoji diaqnostikanın obyektinin öyrənilməsini, əldə edilmiş nəticələrin təhlilində və tətbiqində məsuliyyətli olmağı tələb edir. *Beşincisi, təşkilati* şərtdir ki, müəllimlər və tələbələr arasında əməkdaşlığın və gələcək müəllimlərdə diaqnostik mədəniyyətin formalaşdırılmasının səmərəli metodlarının seçilməsini və tətbiqini nəzərdə tutur. *Altıncısı, nəzarət və tənzimlə-*

[6] Bayramov, Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Dərslik. / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. – Bakı: “Çinar-Çap”, – 2002– s.423

*mə* şərtidir ki, gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının mərhələlərinin müəyyənləşdirilməsini, diaqnostik nəticələrin təhlilini, uçotunu və korrelyasiyasını nəzərdə tutur. *Yeddincisi, məhdudlaşdırıcı - nəticə* şərtidir ki, diaqnostik mədəniyyətin formalaşdırılmasında istifadə olunan nəzarət və özünənəzarət metodlarının və parametrlərinin öyrənilməsini təmin edir.

Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının *didaktik modelində* aşağıdakı elementlərin nəzərə alınmasını vacib hesab edilir:

1) tədris fəaliyyətinin subyektləri olan müəllim və tələbələr;

2) pedaqoji diaqnostikanın öyrədilməsinin məqsədi;

3) gələcək müəllimlərin diaqnostik fəaliyyətə hazırlanmasını və tətbiqini nəzərdə tutan təlimin məzmunu;

4) pedaqoji diaqnostikanın məzmununu mənimsəmək üçün gələcək müəllimlərin şəxsi fəaliyyəti;

5) diaqnostik mədəniyyətin komponentlərinin qiymətləndirilməsi meyarları.

Şəxsiyyətyönümlü təhsil konsepsiyasına görə müəllim və tələbələr pedaqoji prosesin bərabərhüquqlu subyekti kimi çıxış edirlər. Tədris prosesinin təşkili, tədris fənni kimi pedaqoji diaqnostikanın məzmununun müəyyənləşdirilməsi (və ya tədris olunan pedaqoji fənlərdən diaqnostika ilə bağlı materialların seçilməsi), gələcək müəllimlərdə diaqnostik mədəniyyətin formalaşdırılması üçün sağlam təhsil mühitinin və pedaqoji-psixoloji şəraitin yaradılması müəllimin fəaliyyətinin əsasını təşkil edir. Tədris-idrak fəaliyyətinin tamhüquqlu subyekti kimi çıxış edən tələbə diaqnostik fəaliyyətlə bağlı məqsədlərin müəyyənləşdirilməsində, diaqnostikanın komponentərinin mənimsənilməsində və refleksiyasında iştirak edir.

Şəxsiyyətyönümlü təhsil konsepsiyasına əsaslanmaqla pedaqoji diaqnostikada biz iki aspektə xüsusi diqqət yetirdik:

*Birinci aspekt* gələcək müəllimlərin pedaqoji fəaliyyətinin daha peşəkar şəkildə həyata keçirilməsinə və səmərəliliyinin yüksəldilməsinə imkan verən pedaqoji diaqnostika ilə bağlı bilik və bacarıqlara yiyələnməsi ilə bağlıdır.

*İkinci aspekt* (şəxsi aspekt) isə tələbənin özünü pedaqoji fəaliyyətin subyekti kimi dərk etməsi, onda peşə və pedaqoji fəaliyyət

üçün motivasiyanın formalaşması və onlarda diaqnostik fəaliyyətə hazırlıqla bağlıdır.

Paraqrafda B.Blum taksonomiyaları əsasında diaqnostik bilik və bacarıqların mənimsənilməsinin *səviyyələri,* gələcək müəllimlərdə diaqnostik mədəniyyətin formalaşdırılmasında müəllim və tələbələrin *vəzifələri* müəyyənləşdirilir. Didaktik modelin *komponentləri* (məzmun komponenti, fəaliyyət komponenti, tələbatlar komponenti), diaqnostik mədəniyyətin formalaşdırılmasının *mərhələləri* (motivasiyanın formalaşdırılması mərhələsi, istiqamətverici mərhələ, fəaliyyətin formalaşması mərhələsi, fəaliyyətin daxili, öz-özünə nitq şəklində formalaşması mərhələsi, fəaliyyətin əqli şəkildə həyata keçirilməsi mərhələsi) və diaqnostik təfəkkürün formalaşdırılmasının *meyarları* tədqiq olunur.

*"Pedaqoji fənlərin tədrisində gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması"* adlı ikinci paraqrafda pedaqoji prosesdə sistem yaradan struktur elementləri (məqsəd, məzmun, fəaliyyət və nəticə) səciyyələndirilir, diaqnostik fəaliyyətə motivasiya-dəyər münasibətinin formalaşdırılması texnologiyası araşdırılır, pedaqoji fənlərin tədrisində diaqnostik fəaliyyətin *idraki əsaslarının formalaşdırılması* problemi araşdırılır, pedaqoji fənlərin məzmununu diaqnostik aspektdən təhlil edilir, diaqnostik tapşırıqların növləri və formaları, diaqnostik fəaliyyətin modelləşdirilməsi üçün tapşırıqlar səciyyələndirilir və bu sahədəki mövcud təcrübə ümumləşdirilir.

Fəslin "*Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması"* adlı üçüncü paraqrafında gələcək müəllimlərin pedaqoji təcrübəsi ali pedaqoji təhsil prosesinin struktur elementi olmaqla yanaşı, həm də müəllim kadrları hazırlığının zəruri və həlledici mərhələsi kimi səciyyələndirilir.

M.İ.İlyasov[7] pedaqoji təcrübəni tələbələrdə peşəkarlıq və səriştəliliyin formalaşdırılmasında ilk təcrübə məktəbi kimi təhlil edərək onun funksiyalarını (təhsilləndirici, tərbiyəedici, inkişafetdirici) və vəzifələrini (nəzəriyyə və təcrübəni əlaqələndirmək, nəzarət və korreksiya, adaptasiyaedici) izah etmişdir.

---

[7] İlyasov, M.İ. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problem-ləri. monoqrafiya /M.İ.İlyasov. – Bakı: Elm və təhsil, –2018,– s.194-202

F.Əfəndiyeva gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübədə peşə kompetensiyalarına dərindən yiyələnmələri üçün aşağıdakı şərtlərin nəzərə alınmasını vacib hesab edir: 1) oyundan fərqli olaraq təlimin aparıcı fəaliyyət növünə çevrilməsi, həyat tərzinin dəyişməsi, yeni vəzifələrin meydana gəlməsi, ətrafında olanlara (müəllim, sinif yoldaşı, məktəb direktoru və s.) yeni münasibətin yaranması ilə əlaqədar olaraq birinci sinif şagirdinin sosial vəziyyətindəki orijinallığın nəzərə alınması; 2) ibtidai sinif şagirdlərinin öyrənmə bacarığının ibtidai təhsil pilləsinin tələb etdiyi səviyyəyə qədər inkişafının təmin edilməsi; 3) ibtidai sinif şagirdlərinə müəllimə, məktəbin direktoruna, məktəbin psixoloquna, kitabxana müdirinə, təcrübəçi-müəllimə müraciət etmək qaydalarının öyrədilməsi; 4) ibtidai sinif şagirdlərinin uğurlarını və təlim müvəffəqiyyətlərini dəyərləndirərkən onların fərdi-psixoloji inkişaf xüsusiyyətlərinin nəzərə alınması[8]

Paraqrafda əsaslandırılır ki, pedaqoji təcrübədə gələcək müəllimlərin diaqnostik fəaliyyətinin inkişafının səmərəliliyi təmin edilir: 1) tələbələr ustad-müəllimin diaqnostik fəaliyyətlə bağlı mövqeyini və təcrübəsini mənimsəyir; 2) ustad-müəllimlərin pedaqoji mövqeyinə və təcrübəsinə uyğun olaraq maraqlı dərs nümunələri layihələşdirilir; 3) tələbələrin ustad-müəllimləri sərbəst seçmək imkanı yaranır. Yeni münasibətlər əsasında qurulan ustad-müəllim və tələbə əməkdaşlığı şəxsiyyətlərarası emosional münasibətin yaranmasına şərait yaradır. Hazırlanmış müxtəlifsəviyyəli tapşırıqların strukturu və məzmunu nəzərdən keçirilir: 1) pedaqoji bacarıqların formalaşdırılmasına xidmət edən tədqiqat xarakterli tapşırıqlar; 2) tələbələrin öyrənməsinə xidmət edən analitik tapşırıqlar; 3) konstruktiv bacarıqların mənimsənilməsinə xidmət edən tapşırıqlar.

Pedaqoji təcrübənin sonunda gələcək ibtidai sinif müəllimləri pedaqoji diaqnostika ilə bağlı aşağıdakı təlim nəticələrinə yiyələnməlidir: 1) şagird nailiyyətlərinin monitorinqini və qiymətləndirilməsini

---

[8] Эфендиева, Ф. Формирование профессиональных компетенций будущих учителей начальных классов за период педагогической практики // Журнал «Современная наука: актуальные проблемы теории и практики» Серия: Гуманитарные науки. – 2021 №2, – с.106-111

həyata keçirməyi; 2) şagirdlərin təlim ehtiyaclarını və fərdi xüsusiyyətlərini nəzərə almağı; 3) şagirdlərin təlim nailiyyətlərini və tərbiyəlilik səviyyəsini müəyyənləşdirmək üçün müvafiq vasitələri seçməyi və hazırlamağı; 4) öyrənənlərin hazırlığını və inkişafını obyektiv qiymətləndirməyi, qiymətləndirmənin nəticələrini təhlil etməyi və onun əsasında zəruri korreksiyalar aparmağı, 5) tərbiyəliliyin diaqnostikası, kriteriyası və texnologiyasını və s.

*"Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması işinin monitorinqi"* adlı son paraqrafında gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması işinin monitorinqi ADPU-nun "İbtidai sinif müəllimliyi" ixtisasının 294 nəfər tələbəsi (150 nəfər eksperimental qrup, 144 nəfər kontrol qrup) arasında aparılmış, eksperimental iş zamanı fərziyyənin doğruluğu yoxlanılmış, təklif edilən metodikanın gələcək müəllimlərin diaqnostik fəaliyyətə hazırlığındakı yeri və rolu müəyyənləşdirilmişdir.

Eksperimental işin səmərəliliyini qiymətləndirmək üçün dissertasiyanın 2-ci fəslinin 1, 2 və 3-cü paraqraflarında ətraflı şərh edilən diaqnostik pedaqoji fəaliyyətin göstəricilərindən istifadə edilmişdir. Eksperimental iş zamanı faktorial eksperiment metodu daha səmərəli metod hesab olunmuş, diaqnostik fəaliyyətin *şərtləri* və *vasitələri* eksperimental faktorlar kimi *eksperimental qruplarda* diqqət mərkəzində saxlanılmışdır.

Gələcək ibtidai sinif müəllimlərini diaqnostik fəaliyyətə hazırlamağın səmərəli modelini müəyyənləşdirmək məqsədilə pedaqoji eksperiment 3 mərhələdə (müəyyənedici, yaradıcı-dəyişdirici və yoxlayıcı) eksperimental və kontrol qruplarda tələbələrin diaqnostik fəaliyyətinin aşağıdakı göstəriciləri üzrə təhlilllər aparıldı və nəticələr müqayisə edildi: 1) motivasiya-dəyər komponenti (koqnitiv meyar, emosional meyar, motivasiya meyarı); 2) koqnitiv komponent (biliyin formalaşdırılması, təfəkkürün formalaşdırılması); 3) əməliyyat komponenti (əməliyyatın həcmi, əməliyyatın icra keyfiyyəti).

Eksperiment qruplarında bütün istiqamətlər, komponentlər və meyarlar üzrə nəticələrin kontrol qruplara nisbətən xeyli yüksək olması, diaqnostik təfəkkürün, diaqnostik şüurun, diaqnostik fəaliyyətin, diaqnostik mədəniyyətin formalaşmasının aşağıdakı səviyyələri geniş şəkildə səciyyələndirilmişdir: 1) a*daptiv səviyyə.* Diaqnos-

tik mədəniyyətin adaptiv səviyyəsi diaqnostik təfəkkürün inkişafının bütün meyarlar üzrə aşağı səviyyəsi ilə xarakterizə olunur. 2) *reproduktiv səviyyə.* Diaqnostik mədəniyyətin reproduktiv səviyyəsi bütün struktur komponentlərində nisbətən yüksək göstəricilərlə özünü büruzə verir. Tələbələrin reproduktiv inkişaf səviyyəsinə malik olan diaqnostik təfəkkürü daha yüksək inkişaf mərhələsinə (axtarıcılıq formasına) keçmək potensialına malik olsa da, onlarda təfəkkürün əyani-hərəki, əyani-obrazlı və şifahi-məntiqi formaları tam inkişaf etməmişdir. Diaqnostik təfəkkür çox vaxt səthiliyi və qeyri-sabitliyi ilə seçilir. Tələbələrin pedaqoji diaqnostika ilə bağlı nəzəri biliyinin az olması nəzəri və praktiki diaqnostik təfəkkürün inkişafına mane olur. Diaqnostik fəaliyyətin həyata keçirilməsi alqoritminin düzgün dərk edilməməsi gələcək ibtidai sinif müəllimlərinin diaqnostik əsasda peşə fəaliyyəti göstərməsinə mənfi təsir göstərir. 3) *evristik səviyyə.* Diaqnostik mədəniyyətin evristik səviyyəsi adaptiv və repruduktiv səviyyələrlə müqayisədə diaqnostik təfəkkürün, şüurun və fəaliyyətin daha yüksək xüsusiyyətlərinə malikdir. Məhsuldarlığı ilə seçilən diaqnostik təfəkkürün bu səviyyəsində təfəkkürün ümumiləşdiriciliyi, çevikliyi, sabitliyi və müstəqilliyi üstünlük təşkil edir. 4) y*aradıcı səviyyə.* Diaqnostik mədəniyyətin yaradıcı səviyyəsi yüksək inkişaf etmiş diaqnostik təfəkkür, diaqnostik şüur və diaqnostik fəaliyyətlə seçilir. Bu səviyyə yaxşı inkişaf etmiş diskursiv və intuitiv təfəkkür, məhsulunun yeniliyi və orijinallığı ilə seçilən yaradıcı - təfəkkürlə səciyyələnir. Tələbənin nəzəri diaqnostik təfəkkürünün yüksək səviyyəsi pedaqoji diaqnostika sahəsində nəzəri bilikləri dərindən bilməsi ilə müəyyən edilirsə, praktiki diaqnostik təfəkkürün inkişafı gələcək müəllimə müxtəlif diaqnostik problemləri uğurla həll etməyə, pedaqoji diaqnostik situasiyaları aydın başa düşməyə imkan verir. Diaqnostik mədəniyyətin yaradıcı səviyyəsində gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyəti yaradıcı xarakter daşıyır. Burada müstəqil yaradıcılıq, pedaqoji intuisiya, təxəyyül, yeniliyə nail olmaq, diaqnostik metodlardan müstəqil istifadə etmək, nəticələri təhlil edib ümumiləşdirmək üstünlük təşkil edir.

Dissertasiyanın sonunda alınan ***elmi nəticələr*** aşağıdakı şəkildə ümumiləşdirilmişdir:

1. Tədqiqatımız ali pedaqoji məktəblərdə gələcək ibtidai sinif müəllimlərinin diaqnostik-pedaqoji fəaliyyətə hazırlığı sistemində əsaslı dəyişikliyin aparılmasının zəruriliyini üzə çıxartmaqla yanaşı ali pedaqoji təhsilin məqsədi, məzmunu, forması və texnologiyasının təkmilləşdirilməsini müəyyən etdi.

2. Pedaqoji mədəniyyət müəllimin yaradıcı-dəyişdirici şəkildə yiyələnmiş olduğu təcrübədir. Belə təcrübəyə malik müəllimlər yeni pedaqoji təfəkkürün daşıyıcısı olmaqla yanaşı, həm də yaradıcı düşüncəyə, daxili potensiala malik olmaqla aşağıdakı struktur elementlərini özündə ehtiva edir: a)aksioloji element; b)texnoloji element; c)peşə mədəniyyətinin yaradıcı elementi; ç)insanlıq elementi.

3. Pedaqoji diaqnostika müəllimin peşə mədəniyyətinin mühüm tərkib hissəsi olmaqla, peşəkarlığının psixodidadik aspektlərindən birini təşkil edir.

4. Müəllimin peşə fəaliyyətinin əsas komponenti hesab edilən pedaqoji diaqnostika məktəblərdə təlim-tərbiyə işinin təkmilləşdirilməsinin mühüm istiqamətlərindən birini təşkil edir.

5. Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması və onlarda diaqnostik mədəniyyətin formalaşması üçün aşağıdakı pedaqoji şərtlərin nəzərə alınması vacibdir: a) dəyərlər şərti; b) motivasiyaedici–stimullaşdırıcı şərt; c)məzmun-texnoloji şərt; ç) emosional-iradi şərt; d)təşkilati şərt; e)nəzarət və tənzimləmə şərti.

6. Gələcək ibtidai sinif müəllimlərində diaqnostik mədəniyyətin formalaşdırılması diaqnostik düşüncənin, diaqnostik şüurun, diaqnostik fəaliyyətin sintezi olan müəllim şəxsiyyətinin mürəkkəb, dəyər-semantik və dinamik formalaşmasıdır.

7. Tədqiqat nəticəsində gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlığının didaktik modelinin səmərəliliyi sübut edilmişdir. Gələcək müəllimlərdə diaqnostik təfəkkürün və diaqnostik şüurun formalaşmasını, diaqnostik fəaliyyətin mənimsənilməsini təmin edən bu model diaqnostik mədəniyyətin formalaşdırılması prosesinin məzmununu təşkil edir. Didaktik modelin müəyyən edilmiş mərhələlərə uyğun olaraq davamlılıq və ardıcıllıq prinsipləri əsasında həyata keçirilməsi prosesin idarə olunmasını təmin edir.

8. Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması göstəriciləri 3 komponent (motivasiya-dəyər, koqnitiv, əməliyyat), 8 meyar (koqnitiv, emosional, motivasiya, biliyin formalaşdırılması, təfəkkürün formalaşdırılması, əməliyyatın həcmi, əməliyyatın icra keyfiyyəti, texnoloji) əsasında yoxlanıldı, eksperiment iş nəticəsində səmərəliliyi təsdiq edildi.

9. Pedaqoji fənlərin öyrədilməsi prosesində gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanması konsepsiyasına daxildir: a)metodoloji müddəalar (didaktik prosesin tələbələrin peşə və şəxsi inkişafına yönəldilməsi, tələbələrin həyati təcrübəsinə əsaslanması); b) nəzəri müddəalar (təhsilin məqsəd, prinsip, məzmun və texnologiyası haqqında); c) metodiki müddəalar (pedaqoji tapşırıqlar, tədrisin metod və vasitələri).

10. Metodoloji, nəzəri və metodiki müddəaların tələblərindən tələbələrin diaqnostik fəaliyyətini öyrətmək üçün təklif edilən modelin layihələndirilməsində istifadə edilmişdir. Diaqnostik fəaliyyətin strukturuna uyğun olaraq tədris prosesinin mərhələləri - fəaliyyətin əhəmiyyətinin dərk edilməsi, fəaliyyətin koqnitiv assimilyasiyası və praktik fəaliyyətə keçid, diaqnostik fəaliyyətin öyrənmə modelinin komponentləri-motivasiya-dəyər, koqnitiv və əməliyyat müəyyənləşdirilmişdir.

11. Təklif olunan modelin səmərəliliyi eksperiment vasitəsi ilə sübut edilmiş və gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətin subyekti kimi formalaşmasını təmin edən 3 qrup şərt müəyyən edilmişdir: 1)psixoloji-pedaqoji; 2)təşkilati-pedaqoji; 3)didaktik.

12. Dissertasiyada diaqnostik fəaliyyətin öyrədilməsi konsepsiyası hazırlanmış, təlimin vəzifələri, məzmunu, prinsipləri müəyyənləşdirilmiş, “İbtidai sinif müəlliminin fəaliyyətində diaqnostika” kursunun proqramı hazırlanmışdır.

Tədqiqatın nəticələrinə uyğun olaraq aşağıdakı təkliflər irəli sürülmüşdür:

1. Pedaqoji fənlərin məzmununa pedaqoji diaqnostika ilə bağlı mövzuların daxil edilməsi: a) “Pedaqogika” fənninə “Pedaqoji diaqnostika” mövzusu; b) “İbtidai təhsilin pedaqogikası” fənninin məzmununa “İbtidai sinif müəlliminin fəaliyyətində diaqnostika” mövzusu.

2. "İbtidai sinif müəllimliyi" ixtisasının tədris planına ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərin III blokuna "İbtidai sinif müəlliminin fəaliyyətində diaqnostika" seçmə fənninin daxil edilməsi;

3. Pedaqoji fənlərin tədrisində tələbələrə pedaqoji diaqnostikanın mahiyyəti, məzmunu və texnologiyası ilə bağlı sərbəst iş, kurs işi və buraxılış işi mövzularının verilməsi.

Dissertasiyanın nəticələri müəllifin aşağıdakı məqalələ və tezislərində öz əksini tapmışdır:


1. N.N.Niftaliyeva. Analysis of the work of the head of the class // Proceedings of the International Scientific Conference "Theory and Practice of Modern Science and Education". Dnipro, Ukraine. November 29-30, 2019. Part II. p. 264-265.
2. N.N.Niftəliyeva. Pedaqoji diaqnostika və mahiyyəti // Doktorantların və gənc tədqiqatçıların XXIII respublika elmi konfransının materialları - Azərbaycan Memarlıq və İnşaat Universiteti. Bakı, 3 dekabr 2019. s. 475-477.
3. N.N.Niftəliyeva. İbtidai sinif müəllimi pedaqoji diaqnostikanın subyekti kimi // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Təhsil İnstitutu. Elmi Əsərlər. Cild 86 №6 2019. s. 61-65.
4. N.N.Niftəliyeva. Dərsin analizi pedaqoji diaqnostikanın əhəmiyyətli tərkib hissəsi kimi // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri №52 2019. s. 266-271.
5. N.N.Niftəliyeva. Eksperiment pedaqoji diaqnostikanın əhəmiyyətli tərkib hissəsi kimi // Bakı Qızlar Universiteti. Elmi əsərlər. Cild 10 №4 2019. s. 88-96.
6. N.N.Niftaliyeva. The role of international and local experience in evaluating teacher performance // LX international correspondence scientific and practical conference «European research: İnnovation in science, education and technology» February 10-11, 2020 London, United Kingdom, p. 48-50.
7. N.N.Niftəliyeva. İbtidai sinif müəllimlərində pedaqoji peşə mədəniyyətinin formalaşdırılmasının əhəmiyyəti // Kurikulum. Elmi-metodik jurnal/ Cild 14, №2 (54), 2021. s. 63-69.
8. Н.Н.Нифталиева. Формирование педагогической профессиональной культуры будущих учителей начальных классов в современный период//Наука, новые технологии и инновации

Кыргызстана №9, 2021. с. 274-277.

9. Н.Н.Нифталиева. Педагогическая диагностика деятельности будущих учителей начальных классов- «Образовательный потенциал»//Beynəlxalq elmi konfrans - Rusiya Federasiyası Çeboksar şəhəri, Qeyri-dövlət təhsil müəssisəsi, əlavə professional təhsil “Eksperimental metodik mərkəz”-i, Cognitus (www.emc21.ru)- 31.01.2021. c. 83-89.
10. N.N.Niftəliyeva. Pedaqoji diaqnostikanın ibtidai təlim prosesinə təsiri // III Beynəlxalq elmi konfrans – Elmdə və təhsildə innovativ texnologiyalar. Azərbaycan Dövlət Pedaqoji Universiteti (Azərbaycan), İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutu, İKSAD (Türkiyə), Bakı, 24-25 May, 2021. s. 147-153.
11. N.N.Niftəliyeva. İbtidai təhsilin qiymətləndirilməsi sistemi və ona yeni yanaşmalar // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş gənc tədqiqatçıların VI beynəlxalq elmi konfransı. Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Gömrük Akademiyası., Bakı, 29-30 aprel 2022. s.1425-1429.
12. N.N.Niftəliyeva. Təlim-tərbiyə prosesində pedaqoji diaqnostikanın kriteriyaları // Naxçıvan Müəllimlər İnstitutunda 20 may 2022-ci il tarixində “Ümumi təhsilin dövlət standartları və məktəb təcrübəsi” mövzusunda Respublika elmi-praktik konfransının materialları.http://www.nmi.edu.az/wp-content/uploads/2022/07/KURIKULUM-2022-1.pdf Naxçıvan, 20 may 2022. s. 157-158.
13. N.N.Niftəliyeva. Pedaqogikada gələcək müəllimlərin diaqnostik fəaliyyəti //Karabakh. III Beynəlxalq elmi konfransın materialları III cild – International Congress of Modern Studies in Social Sciences and Humanities, Azerbaijan National Academy Of Sciences Folklore Institute, Institute Of Economic Development And Social Studies - IKSAD (Turkey), Instıtute of lınguıstıcs named after Nasimi of ANAS, Azerbaijan State Pedagogical University, Nahchivan State University, "Nahchivan" University, ANAS Central Scientific, Bakı, 7-10 iyun, 2022. s. 240-243.
14. Н.Н.Нифталиева. Уровни усвоения диагностических знаний и умений будуших учителей начальных классов (на основе так-

саномий Б.Блума) // Bakı Qızlar Universiteti. Elmi əsərlər. Cild 13 №2 2022. с. 257-261.
15. N.N.Niftəliyeva. Gələcək ibtidai sinif müəllimlərinin diaqnostik fəaliyyətə hazırlanmasının pedaqoji şərtləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi.Təhsil İnstitutu. Elmi Əsərlər. Cild 89 №2 2022. s. 48-52.
16. N.N.Niftəliyeva. Pedaqoji diaqnostikanın nəzəri təhlili // Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. Təhsil İnstitutu. Elmi Əsərlər. Cild 90 №3 2023. s. 97-99.
17. N.N.Niftəliyeva. İbtidai sinif müəllimlərinin peşə mədəniyyətinin xüsusiyyətləri // İbtidai təhsilin problemləri. Elmi məqalələr toplusu. I cild. Bakı: Elm və təhsil, 2023, s. 351-370.
18. N.N.Niftəliyeva. İbtidai sinif müəllimlərində pedaqoji peşə mədəniyyətinin formalaşdırılması // İbtidai təhsilin problemləri. Elmi məqalələr toplusu. II cild. Bakı: ADPU, 2023, s. 275-293.

Dissertasiyanın müdafiəsi 16 may 2025-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı, Ü.Hacıbəyli 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.



Çapa imzalanıb: 14.04.2025
Kağızın formatı: $60\times84^{1/16}$
Həcm (işarə sayı): 38461
Tiraj: 100